Gənclərin formalaşmasında mühüm layihə

"Ölkəmizi tanıyaq" tur-aksiyasının iştirakçıları Qəbələdə

(Əvvəli 4-cü səhifədə).

Sonra şagirdlər tarix-diyarşünaslıq muzeyində 900 il Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələnin tarixi, mədəniyyəti və etnoqrafiyası haqqında məlumat əldə ediblər. Bildirilib ki, muzeyin əsas fondunda Qəbələnin 2500 illik tarixini əks etdirən 12 mindən çox tarixi və elmi əhəmiyyətə malik eksponat var.

Daha sonra Nic qəsəbəsinə səfər edən şagirdlər buradakı "Cotari" Alban-Udi kilsəsinə böyük maraqla baxıblar. Məlumat verilib ki, kilsə tarixi baxımdan qədim və əhəmiyyətli abidələrdən biridir. Nic qəsəbəsi tolerantlığın kiçik bir modeli hesab edilir. Qəsəbədə 3 kilsə və iki məscid var. Altı min nəfər əhalisi olan qəsəbədə 3700 udi yaşayır. Nic qəsəbəsində udilər öz dilini, dinini, adət-ənənələrini uzun əsrlərdir ki, qoruyub saxlayırlar. Nicdəki məktəblərin ibtidai siniflərində udi dili tədris olunur.

Məktəblilər "Beltmann" Piano Fabrikində və Qəbələ Konserv Zavodunda istehsal prosesini də izləyiblər. Həmçinin şagirdlər Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna səfər edib, qədim Qəbələ şəhərinin qalıqları və ərazidə aparılan arxeoloji qazıntıların nəticələri, eləcə də Qəbələ Arxeoloji Mərkəzində nümayiş olunan maddi-mədəniyyət nümunələri ilə tanış olublar. Məlumat verilib ki, Azərbaycanın ən qədim şəhərlərindən olan Qəbələnin çox zəngin tarixi var. Bu rayondakı ölkə əhəmiyyətli qədim memarlıq abidələri mədəni irsimizin nadir inciləri hesab olunur. Məktəblilər qədim Qəbələ şəhərinin bu günədək gəlib çatan qalıqları, qala divarı və burada aparılan arxeoloji qazıntılar zamanı əldə olunan maddi-mədəniyyət nümunələri barədə ətraflı məlumatlandırılıblar.

Şagirdlər asudə vaxtlarında Qəbələnin müasir otelləri, "Qəbələnd" İstirahət və Əyləncə Mərkəzi, bölgənin füsunkar təbiəti ilə tanış olub, təşkil edilən ekskursiyadan məmnun qaldıqlarını bildiriblər.

Rais RƏŞİDOV,
İlkin Vəlizadə (foto).
"Qəbələ"

İntellektual oyun təşkil edilib

Qəbələ rayonunun tarixi abidələrinə, turizm obyektlərinə və istehsal müəssisələrinə ekskursiya edən Göygöl, Tovuz, Ağdaş, Siyəzən, Füzuli, Quba, Qusar, Xaçmaz, Şabran və Xızı məktəbliləri arasında proqrama uyğun olaraq "Nə? Harada? Nə zaman?" adlı 8-ci intellektual oyun keçirilib.

"Ölkəmizi tanıyaq" layihəsinin sonuncu günü Azərbaycan İntellektual Klublar Assosiasiyasının təşkilatçılığı ilə "Qafqaz Sport" otelində keçirilən bu oyunda məktəblilər öz biliklərini nümayiş etdiriblər. Assosiasiyanın nümayəndəsi, "GameTV-.az" Prodüser Mərkəzinin redaktoru Fərrux Hüseynov çıxış edərək "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində ənənəvi olaraq keçirilən bu intellektual oyunun əhəmiyyətindən danışıb. O, bildirib ki, əsas məqsəd şagirdlərin indiyədək qazandığı bilikləri və dünya görüşünü bu oyun vasitəsilə yoxlamaq, ən savadlı gəncləri aşkara çıxarmaqdır.

"GameTV.az" Prodüser Mərkəzinin yaradıcı heyəti və çəkiliş qrupu tərəfindən hazırlanan, Azərbaycanın televiziya kanallarında yayımlanan "Breyrinq", "Əlaçı", "61!", "□□□? □□□? □□□□□?" intellektual verilişlərinin redaktoru olan Fərrux Hüseynov "Ölkəmizi tanıyaq" layihəsində qalib gələn komandaların gələcəkdə rəhbərlik etdiyi həmin bilik yarışlarına dəvət olunacağını qeyd edib.

Sonra intellektual oyunlara start verilib. İki saat davam edən yarışda hər rayondan 36 şagird iştirak edib və onlar tərkibində 6 nəfərin olduğu 6 qrupa bölünüblər. İştirakçılara "Ölkəmizi tanıyaq" layihəsinə uyğun olaraq məntiq, tarix, Azərbaycan filmləri, dünya görüşü, abidələrimiz, dahi şəxsiyyətlər, dünyada baş verən maraqlı hadisələr, məktəbdə tədris olunan fənlər üzrə 24 sual verilib. Şəffaflığın təmin olunduğu yarış gərgin mübarizə şəraitində keçib.

Oyunun nəticələrinə görə Xaçmaz məktəbliləri 1-ci, Tovuz şagirdləri 2-ci, Quba komandası 3-cü yerə layiq görülüb. Qaliblərə kubok, medal və sertifikatlar təqdim olunub.

"Qəbələ"

Qəbələyə ekskursiya uğurla başa çatıb

Respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın növbəti mərhələsi uğurla başa çatıb.

Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə keçirilən tur-aksiyada iştirak edən Göygöl, Tovuz, Ağdaş, Siyəzən, Füzuli, Quba, Qusar, Xaçmaz, Şabran və Xızı məktəblilərindən ibarət 10 qrupun üzvləri noyabrın 19-da Qəbələ şəhərindən yaşadıqları rayonlara yola düşüblər.

Rayon icra hakimiyyəti və təhsil şöbəsinin məsul işçiləri tərəfindən yola salınan tur-aksiya iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Sonra "Qafqaz Karvansaray" və "Qafqaz Sport" otellərinin qarşısından şagirdləri yaşadıqları rayona aparan avtobus karvanı yola çıxıb.

Qeyd edək ki, 10 şəhər və rayondan olan 400 məktəbli tur-aksiyanın proqramına uyğun olaraq noyabrın 16-19-da Qəbələ, Şəki və Zaqatala rayonlarının sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər, son illərdə inşa edilən sosial obyektlər, əyləncə və istirahət mərkəzləri, tarixi-mədəni abidələr, turizm obyektləri, muzeylərlə tanış olublar. Maarifləndirici xarakter daşıyan bu tur-aksiya zamanı məktəblilərə bölgənin tarixi, adət-ənənələri, coğrafiyası, turizm imkanları haqqında məlumat verilib.

Şagirdlərin iştirakı ilə intellektual oyunlar keçirilib, musiqili-əyləncəli gecə təşkil olunub. Ekskursiya zamanı gözəl təbiət qoynunda istirahət edən, mənzərəli guşələrdə xatirə şəkilləri çəkdirən məktəblilər Qəbələdən xoş təəssüratlarla ayrılıblar.

"Qəbələ"

Tur-aksiya iştirakçılarının Qəbələ haqqında təəssüratları

Göygöl məktəblisi Ceyhun Eyvazov: "Qəbələdə gördüklərimiz təəssüratlarımızı ikiqat artırıb"

"Ölkəmizi tanıyaq" tur-aksiyası bizə Qəbələnin tarixi abidələri ilə yanaşı, həm də rayonun inkişafı ilə daha yaxından tanış olmaq imkanı yaradıb".

Qəbələdə "Beltmann" piano fabriki, "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi, "Qəbələnd" Əyləncə Mərkəzi ilə tanış olan Göygöl məktəblisi rayonda sürətli inkişafın şahidi olduğunu bildirib. "Burada böyük abadlıq-quruculuq işləri aparılır, müasir infrastruktur yaradılır. Rayonun gözəl təbiətinə isə heyran olmamaq mümkün deyil. Biz ekskursiya zamanı rayonun qədim mədəniyyət abidələri ilə yanaşı, müasir tikililəri ilə də yaxından tanış olduq. IDEA İctimai Birliyinin təşəbbüsü ilə keçirilən ağacəkmə aksiyasında iştirak etmişik. Ümumiyyətlə, iki gün ərzində gördüklərimiz bölgə haqqında təəssüratlarımızı ikiqat artırıb", - deyə Ceyhun Eyvazov vurğulayıb.

❖ ❖ ❖

Şabran məktəblisi Nurcahan Hətəmova: "Qəbələnin tarixi irsi qorunmaqla yanaşı, müasirliyinə də önəm verilir"

"Bu gün Qəbələnin görməli yerlərini gəzdik. Ölkəmizin Şimal-Qərb bölgəsinin təbiəti füsunkar gözəlliyə malikdir. Dağlıq və meşəlik ərazilər çox xoşuma gəlir. "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi və "Qəbələnd" İstirahət Mərkəzi dağlar qoynunda möcüzədir. Dünyanın hər yerindən bura turistlər gəlir. Biz kanat yolları ilə dağları gəzdik. Məlumat verildi ki, Qəbələdəki otellər yüksək səviyyəli xidməti ilə seçilir".

❖ ❖ ❖

Ağdaş məktəblisi Kamil Məcnunov : "Tur-aksiya çərçivəsində payız tətilini səmərəli keçirdik"

"Qədim və heyrətamiz gözəlliyə malik Qəbələ şəhəri məndə zəngin təəssürat oyatdı. Bu rayonda ən müasir turizm obyektlərinin, qədim tarixi abidələrin, mənzərəli yerlərin şahidi olduğum üçün çox sevinirəm. Biz Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan tur-aksiya çərçivəsində səfər etdiyimiz rayonlarda bu inkişafın bir daha şahidi olduq.

Bizə gündən-günə çiçəklənən ölkəmizin hər guşəsini tanımağımız üçün lazımi şərait yaradılır. Qəbələyə səfər etmək mənim çoxdankı arzum idi. Biz tur-aksiya çərçivəsində həm maarifləndik, həm də payız tətilini səmərəli keçirdik", - deyə Kamil Məcnunov qeyd edib